

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 127 (20.781)

11 iyul 2013-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin ildönümü qeyd olunur

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında "14 iyul 1969-cu il – zirvəyə yüksəlişin başlandığı gün" adlı tədbir keçirilmişdir. Tədbirdə rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin məruzəsi dinlənilmişdir. Qeyd edilmişdir ki, 1969-cu ilin 14 iyulu respublikamızın tarixində dönüş günü kimi yadda qalmışdır. Ölkəmizin mədəni, iqtisadi yüksəlişi, xalqımızın rifah halının yaxşılaşdırılması, indiki müstəqil dövlətimizin təməlinin qoyulması məhz həmin gündən başlanmışdır.***

Həmin gün xalqımızın böyük oğlu, müdrik şəxsiyyət, ulu öndərimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlmişdir.

Ümummilli liderimiz Heydər Əliyev doğma Vətəni Azərbaycana və millətinə ürəkdən bağlı olan, onları ürəkdən sevən və respublikamızın yüksəlişi üçün fədakarlıq göstərən rəhbər idi. Onun müdrik, uzaqgörən və səriştəli rəhbərliyi nəticəsində respublikamız nəinki Sovetlər Birliyində yüksək göstəricilərə nail olmuş, həm də dünyada tanınmış və özünün hazırkı müstəqilliyini təmin etmişdir.

Heydər Əliyevin idarəçilik üslubu böyük bir məktəb idi. Onun natiqlik məharəti, adamlarla ünsiyyəti, göstəriş və tövsiyələr vermək qabiliyyəti, kadrlara qayğı və tələbkarlıq göstərmək üslubu, çətin məsələləri həll etmək üçün qısa vaxtda çıxış yolu tapmaq bacarığı, iradə möhkəmliyi və yorulmazlığı həmişə heyrət doğururdu.

İndi açıq başa düşülür ki, ulu öndər Heydər Əliyev o vaxtlar həyata keçirdiyi böyük tədbirlərlə, əslində, müstəqilliyimizin təməl daşını qoyurmuş. Respublikamızda hərbi məktəblərin təşkili, azərbaycanlıların hər il ittifaqın tanınmış ali məktəblərinə göndərilməsi, iqtisadi müstəqilliyin təmin olunması məhz indiki dövlət müstəqilliyimiz üçünmüş.

Qeyd olunmuşdur ki, bu gün Azərbaycan Heydər Əliyevin əsasını qoyduğu uğurlu yolla gələcəyə doğru inamla addımlayır. Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi olan Prezident İlham Əliyevin səyi nəticəsində Azərbaycanın dinamik inkişafı davamlı xarakter almış, respublikamızın beynəlxalq aləmdə yeri və nüfuzu daha da möhkəmlənmişdir. Bu gün muxtar respublikamız da böyük tərəqqi yolunda olmaqla əsl intibah dövrünü yaşayır. Doğma diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən quruculuq tədbirləri muxtar respublikamızın hərtərəfli inkişafına təkan verir. Bütün bunlar 1969-cu ilin 14 iyulundan başlanan yolun, siyasi xəttin bəhrələridir.

Sonra məruzə ətrafında YAP Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, partiya fəallarından Məmməd Məmmədov və Xanım Əhmədova çıxış etmişlər.

**C.ƏLİYEV**

***Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin ildönümü münasibətilə Babək Rayon Mədəniyyət Evində konfrans keçirilmişdir.***

Konfransda Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səlvər Hacıyev çıxış edərək bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ildönümü hər yerində, eləcə də Naxçıvan Muxtar Respublikasında qeyd edilir.

Qeyd olunmuşdur ki, siyasi baxışlarından asılı olmayaraq, mütləq əksəriyyət etiraf edir ki, ötən əsrin ortalarında, 1969-cu ilin 14 iyulunda ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi xalqımızı milli müstəqilliyə doğru aparan işıqlı yolun başlanğıcı olmuşdur. Haqq-ədalət uğrunda mübarizəni özünün həyat amalına çevirmiş ulu öndər hələ sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə hər bir fərdin maraq və mənafeyini üstün tutmaqla ədalətli və qanunpərəst rəhbər olduğunu təsdiqləmişdir.

İqtisadi islahatlar bütün cəmiyyətlərin və dövlətlərin sosial-siyasi inkişafını müəyyənləşdirən əsas amillərdən biridir. Tam qətiyyətlə söyləmək mümkündür ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi müddətdə respublikada sosial-iqtisadi tərəqqi ən yüksək səviyyəyə çatmışdır. 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən görkəmli dövlət xadimi Heydər Əliyevin atdığı ilk addımlardan biri məhz respublika iqtisadiyyatının inkişafının sürətləndirilməsi ilə bağlı olmuşdur.



Ötən əsrin 70-ci illərinin səciyyəvi cəhətlərindən biri də kənd təsərrüfatında aparılmış köklü islahatlarla əlaqədar idi. Bu islahatlar qısa vaxt ərzində Azərbaycanın bütün regionlarında böyük dəyişikliklərə gətirib çıxarmış, əhalinin gün-güzəranı nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmışdır. Regionların sosial-iqtisadi inkişafına da böyük diqqət yetirilmiş, şəhərlə kənd arasında mövcud olan sosial fərqlərin aradan qaldırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Həmin illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış, xalqımızın rifahının yaxşılaşdırılmasına, sağlamlığının möhkəmləndirilməsinə, mədəniyyətimizin yüksəlməsinə xidmət edən yüzlərlə sağlamlıq ocaqları, teatr və muzeylər, idman mərkəzləri, sosial-iaşə müəssisələri fəaliyyət göstərməyə başlamışdır.

Qeyd olunmuşdur ki, bu illərdə Naxçıvan Muxtar Respublikasının Babək rayonu yaradılmış, burada xeyli sənaye obyektləri, təhsil, səhiyyə və mədəniyyət ocaqları tikilərək istifadəyə verilmişdir.

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi formasiyaya keçidin ağır şərtləri ilə qarşılaşmalı oldu. Ölkədə iqtisadiyyatın, demək olar ki, bütün sahələrində tənəzzül dövrü başlandı. Qeyri-sabitlik, dövlət idarəetmə aparatının səmərəli fəaliyyət göstərməməsi bu böhranın daha da dərinləşməsinə gətirib çıxardı. 1993-cü ildə xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqilliyimiz qorunub saxlanılmış, ölkədə iqtisadi böhranın aradan qaldırılmasına xidmət edən qəti və düşünülmüş addımlar atılmış, Azərbaycan yerləşdiyi regionun ən güclü, ən inkişaf etmiş ölkəsinə çevrilmişdir.

Sonra çıxışlar olmuşdur.

**Səbuhi HÜSEYNOV**

*"Azərbaycan Respublikası vətəndaşlarının 2013-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2013-cü il tarixli Sərəncamına əsasən, dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.*

## Gənclər hərbi xidmətə yola salınır

Mərasimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Səxavət Salmanov açıb.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin qüdrətlənməsinə səbəb olub. Bu gün Azərbaycanın güclü və qüdrətli ordusu vardır. Ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Son illərdə orduya ayrılan xərclər, ordu quruculuğu sahəsində görülən işlər, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, ordunun müasir əsaslarla komplektləşdirilməsi bunu deməyə əsas verir. Silahlı Qüvvələrin Naxçıvanda yerləşən hissələrində də bu gün yüksək şərait yaradıldığını diqqətə çatdıran Səxavət Salmanov onu da bildirib ki, görülən bu işlər çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verib.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini, polis general-mayoru Səbuhi Novruzov, ədliyyə nazirinin müavini Elnur İsmayılov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Qənbər Qasımov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Elvin Oruclu Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yolasalma mərasimləri keçirilib.

**Xəbərlər şöbəsi**

## Əməyin mühafizəsi sosial siyasətin əsas tərkib hissəsidir

***Əməyin mühafizəsi işçilərin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnu təmin etmək məqsədilə nəzərdə tutulan texniki təhlükəsizlik, sanitariya, gigiyena, müalicə-profilaktika tədbirləri, normaları və standartları sistemidir.***

Muxtar respublikamızda aparılan geniş miqyaslı tikinti və abadlıq işləri, habelə yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması iş yerlərində əməyin mühafizəsi, işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunması istiqamətində davamlı tədbirlərin həyata keçirilməsini şərtləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 8 iyun 2011-ci il tarixdə istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər və 27 fevral 2012-ci il tarixdə tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması ilə əlaqədar keçirilən müşavirələr iş yerlərində insanların sağlamlığının qorunmasına, ümumilikdə, insan amilinə verilən yüksək diqqət və qayğının ifadəsidir.

İqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək şəraitinin müasir standartlar səviyyəsində yaxşılaşdırılması və təkmilləşdirilməsinin əsasını təşkil edən əməyin mühafizəsi işinin yüksək səviyyədə təmin olunması sahəsində əldə olunan müsbət dinamika davam etdirilir. Cari ilin fevral ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2012-ci ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən mülkiyyətindən asılı olmayaraq, bütün müəssisə və təşkilatlarda işçilərlə əmək müqaviləsinin bağlanması vəziyyətinin, bədbəxt hadisələr və peşə xəstəlikləri ilə bağlı əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin mövcudluğunun araşdırılması, əməyin mühafizəsinin təşkili vəziyyətinin mütəmadi olaraq nəzarətdə saxlanılması barədə müvafiq tapşırıqlar verilmişdir.

Verilmiş tapşırıqların icrası ilə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin ilk altı ayı ərzində əməyin mühafizəsi ilə bağlı 154 istehsal müəssisəsi və tikinti sahəsində nəzarət həyata keçirilmiş, əməyin mühafizəsi ilə bağlı mövcud nöqsanların aradan qaldırılmasına dair 13 halda icrası məcburi göstərişlər verilmiş və 48 işçi işin xarakterinə uyğun fərdi mühafizə vasitələri ilə təmin edilmişdir.

Tikinti aparılan meydançada müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılması məqsədilə 48 tikinti sahəsinə baxış keçirilmiş və akt tərtib olunaraq həmin tikinti sahələrində işlərin başlanmasına razılıq verilmişdir.

İstehsal, emal və tikinti sahələrində kimyəvi qazların, rütubətin, tozlanmanın, səsin, işıqlandırmanın, şüalanmanın, istiliyin və digər amillərin səviyyəsini müəyyənləşdirmək məqsədilə səyyar laboratoriya avtomobili vasitəsilə monitorinq həyata keçirilmişdir. Belə ki, müasir portativ avadanlıqlar vasitəsilə iş yerlərində işçilərin sağlamlığına mənfi təsir göstərən, peşə xəstəliyinə zəmin yaradan mövcud amillərin səviyyəsinin müəyyənləşdirilməsi üçün ölçmələr aparılmış, aşkar olunan nöqsanların aradan qaldırılması istiqamətində lazımi tədbirlərin görülməsi məqsədilə işəgötürənlərə metodik köməkliklər göstərilmişdir.

Nəzarət qaydasında aparılan araşdırmalar zamanı əmək qanunvericiliyinə uyğun olaraq, işçilərlə əmək müqaviləsinin bağlanması, işçilərin bədbəxt hadisələr və peşə xəstəlikləri zamanı peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunmalarının vəziyyəti diqqət mərkəzində olmuşdur. Belə ki, 87 müəssisədə nəzarət həyata keçirilmiş, 132 işçi ilə əmək müqaviləsinin bağlanması, işçilərlə bağlanmış 28 əmək müqaviləsində isə əməkhaqqının real göstərilməsi təmin edilmişdir. Bununla yanaşı, 328 müəssisədə işçilərlə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsi bağlanmışdır.

Aparılan müşahidələr və təhlillər zamanı məlum olmuşdur ki, tikinti sektorunda baş verə biləcək bədbəxt hadisələrin yaranma riskləri mövcuddur. Bu risklərin başvermə ehtimalının qarşısının alınmasında qabaqlayıcı tədbirlərin görülməsi mühüm rol oynayır. İşəgötürənlərin diqqətini bir daha əməyin mühafizəsi tədbirlərinə cəlb etmək məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində muxtar respublikamızda tikinti aparan özəl və dövlət müəssisələri tərəfindən əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına riayət olunması mövzusunda növbəti maarifləndirici seminarlar keçirilir.

Bu gün muxtar respublikada işəgötürənlər tərəfindən işçilərin əməyin mühafizəsinin norma və qaydalarına əməl olunmasına mütəmadi nəzarət edilir, istehsal və tikinti sahələrində iaşə və soyunub-geyinmə üçün çadır və köşklər, sanitariya qovşağı təşkil olunur, işçilərin nahar və istirahət etmələri üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlər hazırlanır.

Bu sahədə həyata keçirilən bütün tədbirlər istehsal, emal və tikinti sahələrində iş prosesində əmək məhsuldarlığının, o cümlədən hər bir işçinin peşə vərdişlərindən səmərəli istifadəsinə və görülən işlərin keyfiyyətlə aparılmasına, əməyin mühafizəsi mədəniyyətinin yüksəlməsinə zəmin yaratmışdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Ulu Tanrı səxavətini bu yurd yerindən zərrə qədər də əsirgəməyib. Əsrarəngiz gözəllikləri, füsunkar təbiəti və təbiət abidələri, möhtəşəmlik rəmzi olan "səngərdən qalalı" dağları, suyu dişgöynədən bulaqları şair qələminin, rəssam fırçasının ilham mənbəyidir. Bir də ki, səmimi, qonaqpərvər, yurd sevgisini, torpaq təəssübünü hər şeydən uca tutan insanları var Şahbuzun.

# Dağ kəndləri tikinti meydançasına çevrilib

## *Şahbuz rayonunun ucqar yaşayış məntəqələrində quruculuq tədbirləri sürətlə davam etdirilir*

***Yolumuz bu yurd yerinədir***

Naxçıvan şəhərindən çıxanda yenə də təbiətin şıltaqlığı tutmuş, yayın bu çağında yağış yağmağa başlamışdı. Aydınlıqdır, – deyə düşündüm, öz yerinə, öz yurduna yağır. Ancaq bir anda yadıma əkin-biçin mövsümünü yaşamağımız düşdü. Həmçinin gedəcəyimiz ünvanları – dağlıq bölgənin Ayrınc, Güney Qışlaq, Qızıl Qışlaq və Kükü kəndlərini gözlərim önünə gətirdim...

Bir neçə dəqiqə sonra Naxçıvan-Şahbuz magistralının Babək rayonunun Cəhri kəndi ərazisində Cəhriçayın üzərində salınmış yeni körpünün yaxınlığında avtomobili saxlayıb yerə düşdük. Artıq göy üzü tərtəmiz idi. Magistralda həyata keçirilən yenidənqurma tədbirlərindən hazırlayacağım növbəti yazı üçün fotoqraf bir neçə kadrı aparatın yaddaşına köçürdü. Naxçıvan girəcəyində yerləşən Daylaqlı və Sələsüz kəndlərinə qədər bir neçə yerdə belə kadrlar çəkdik. Yol boyu söhbətimiz isə muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq tədbirlərinin bir qolunu təşkil edən yol infrastrukturunun yenilənməsi oldu.

Qeyd edək ki, bu istiqamətdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı"na uyğun olaraq, ölkəmizin bütün regionları ilə yanaşı, muxtar respublikamızda da yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Hazırda uzunluğu 59,2 kilometr olan Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun yenidən qurulması sürətlə davam etdirilir. Yolda körpü və selötürücülər tikilir, yol yatağı bərkidilir, asfalt-beton örtük salınır. "Gəmiqaya Yol, Su, Enerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarının çalışdıqları obyektin Naxçıvan-Şahbuz hissəsi dördzolaqlı, uzunluğu 31,8 kilometr, eni 17,2 metr, Şahbuz-Batabat hissəsi isə ikizolaqlı olmaqla, uzunluğu 27,4 kilometr, eni 9 metrdir. Avtomobil yolunda 9 ədəd monolit körpünün, 297 ədəd selötürücünün tikintisi nəzərdə tutulub. Avtomobil yolunun Naxçıvan-Şahbuz hissəsində yol yatağı genişləndirilib, yola laborator analizdən keçirilmiş inşaat materialları tökülüb bərkidilib. Selötürücülər salınıb, bir neçə körpüdə inşaat işləri aparılıb.

Kənd yolları da belə qayğıdan kənarda qalmayıb. Şahbuz şəhərindən Kükü kəndi istiqamətinə, bu yoldan sola ayrılaraq Qızıl Qışlaq və Güney Qışlaq kəndlərinə gedən yolda da aparılan yenidənqurma işləri bu qayğının ifadəsidir. Ötən müddət ərzində yolların genişləndirilməsi əsasən başa çatdırılıb, hamarlama işləri aparılıb, adıçəkilən yaşayış məntəqələrində 6 körpü tikilib, 9 su keçidi inşa edilib. Görülən işlərin keyfiyyətinə ciddi diqqət yetirilir. Məqsəd isə ondan ibarətdir ki, ucqar dağ yaşayış məntəqələrinə insanların təhlükəsiz və rahat hərəkəti təmin olunsun.

***Bu yol üzərində yerləşən ilk yaşayış məntəqəsi Ayrınc kəndidir və ya quruculuğun yeni ünvanlarından biri***

Məlumat üçün bildirək ki, bölgənin kiçik yaşayış məntəqələrindən biri olan bu kənd ilk dövlət qayğısını neçə illər əvvəl görüb. Burada istifadəyə verilən yeni məktəb binasının açılış mərasimində ölkə Prezidenti cənab İlham Əliyev iştirak edib. Dövlət başçısı həmin tədbirdə ayrıncları bu münasibətlə təbrik edərək belə qayğının gələcəkdə də davam etdiriləcəyini bildirib. Ötən müddət ərzində məktəb bir sıra uğurlara imza atıb. Pedaqoji kollektiv bu gün də çalışır ki, onlara göstərilən qayğıya əməli işlə cavab versinlər.


Qızıl Qışlaq kəndində inşa olunan kənd mərkəzi və məktəb binası

Budur, kənddə yeni tikinti işlərinə başlanılıb. Məktəb binasından bir qədər yuxarıda, yolun sağında ikimərtəbəli kənd mərkəzi, solunda isə xidmət mərkəzi inşa olunur. Bu quruculuq tədbirini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin kollektivi həyata keçirir. Hər iki binada hörgü işləri əsasən başa çatdırılıb.

***Qızıl Qışlaq və Güney Qışlaq kəndləri tikinti meydançasını xatırladır***

Hazırda bu yaşayış məntəqələri kompleks quruculuq tədbirləri həyata keçirilən tikinti meydançasına çevrilib. Hər iki kənddə müxtəliftəyinatlı quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. Məlumat üçün bildirək ki, bir neçə il əvvəl Qızıl Qışlaqda mədəniyyət evi üçün yeni bina inşa olunub. Yaxın kəndlərin də istifadə etdiyi baytarlıq məntəqəsi istifadəyə verilib. Qərbi Azərbaycan torpaqlarından didərgin düşərək buraya pənah gətirən soydaşımıza dövlətimiz böyük qayğı göstərərək onu fərdi yaşayış evi ilə təmin edib.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Fariz Göyüşovla görüşüb ondan Qızıl Qışlaq haqda qısa məlumat alırıq. Bildirir ki, 232 təsərrüfatda 775 sakinin yaşadığı kənddə dağlıq ərazilər üçün xarakterik olan təsərrüfat sahələri inkişaf etdirilir. Bunun üçün onlar hərtərəfli dövlət qayğısını daim öz üzərlərində hiss edirlər. Cari ildə daha böyük qayğılarla əhatə olunublar. Belə ki, mart ayından başlayaraq burada 3 binanın inşasına start verilib.

Öyrənirik ki, binalardan biri kənd tam orta məktəbi üçün nəzərdə tutulub. İş icraçısı Qaçay Paşazadə bildirir ki, 110 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Burada tikinti işləri əsasən başa çatdırılıb, çardaq hissə qurulub. Hazırda qapı-pəncərələr salınır, digər tikinti tədbirləri həyata keçirilir.

Məktəb binasının yaxınlığında kənd mərkəzi inşa olunur. İki mərtəbədən ibarət olacaq binanın birinci mərtəbəsində inşaat işləri yekunlaşdırılıb, hazırda ikinci mərtəbədə qəlib işləri görülür.

Ucqar dağ kəndinin sakinlərinə daha bir dövlət qayğısı isə bu yaşayış məntəqəsində xidmət mərkəzinin tikintisidir. Burada da tikinti işləri başa çatdırılıb. Quruculuq tədbirləri Güney Qışlaq kəndini də əhatə edir. Bu yaşayış məntəqəsində hazırda iki mərtəbədən ibarət kənd mərkəzi inşa olunur. Kənd mərkəzinin birinci mərtəbəsində rabitə evi, tibb və polis sahə məntəqələri, ikinci mərtəbədə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub və zal yerləşəcək. Qeyd edək ki, yaxın günlərdə Güney Qışlaqda xidmət mərkəzinin də tikintisinə başlanılacaq. Bütün obyektlərdə inşaatçılar üçün normal iş şəraiti yaradılıb.


Güney Qışlaqda kənd mərkəzinin tikintisi

***Kükü kəndi də diqqətdən kənarda qalmayıb***

1570 sakinin 404 təsərrüfatda birləşdiyi bu yaşayış məntəqəsini Şahbuz rayonunun böyük kəndlərindən biri hesab etmək olar. Qədim tarixə malik olan bu yurd yeri haqqında oxuculara növbəti nömrələrimizin birində geniş yazı təqdim edəcəyimiz üçün burada ancaq kənddə gedən quruculuq işlərindən söhbət açmağı lazım bildik. Hazırda Küküdə də bir neçə bina inşa olunur. Kənd tam orta məktəbinin köhnə binasında əsaslı təmir və yenidənqurma işləri aparılmaqla binaya daha 2 korpus da əlavə edilib. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin iş icraçısı Nizami Əhmədov deyir ki, yeni korpuslarda idman zalı, yeməkxana, kompyuter və elektron lövhəli siniflər yerləşəcək. Yeni binanın həyətində açıq idman zalı qurulacaq. Binada hörgü işləri əsasən başa çatdırılıb. Hazırda çardaq qurulur, suvaq işləri görülür, qapı-pəncərələr salınır.


Kükü kəndində yeni obyektlərin inşası


Yenidən qurulan Kükü kənd tam orta məktəbi

Muxtar respublikamızda mahiyyət və məzmunca yeni olan daha bir kənd mərkəzi üçün bina Kükü kəndində də inşa olunur. Layihəyə əsasən, kənd mərkəzinin binası 2 mərtəbədən ibarət olacaq.

Kükülülərə daha bir dövlət qayğısının ifadəsi kimi burada inşa olunan 2 mərtəbədən ibarət həkim ambulatoriyasını da göstərmək olar. Dağ kəndi sakinlərinin sağlamlığı keşiyində dayanacaq ambulatoriya binasının da tikintisində sürətli iş ahəngi hökm sürür. Hazırda inşaatçılar binanın birinci mərtəbəsinin dəmir-qəlib işləri ilə məşğuldurlar. Yaxınlıqda isə birmərtəbəli xidmət mərkəzinin tikintisi aparılır. Kompleks quruculuq tədbirləri həyata keçirilən ərazinin yerləşdiyi ünvanda istinad divarlarının tikintisinə də başlanılıb.

***Son söz yerinə və ya şahbuzluların ürək sözləri***

Oxucular elə düşünməsinlər ki, günü-gündən gözəlləşən, abadlaşan Şahbuz rayonunda quruculuq işləri bununla məhdudlaşır. Elə deyil. Ağbulaqda, rayon mərkəzində, Sələsüz kəndində də kompleks quruculuq tədbirləri sürətlə davam etdirilir. Yaxşı cəhət kimi onu da qeyd edək ki, Sələsüz kəndində neçə illər əvvəl də kompleks quruculuq tədbirləri aparılıb, məktəb binası, kənd mərkəzi inşa olunub. Bir neçə kənd sakini üçün fərdi mənzillər tikilib. Hazırda məktəbin binası yenidən qurulur, mövcud kənd mərkəzinin binası yeni layihə əsasında həkim ambulatoriyası üçün inşa edilir, yeni kənd mərkəzi tikilir.

Ağbulaqda isə ötən il bir neçə obyekt istifadəyə verilib. Hazırda kənddəki istirahət kompleksində son tamamlama işləri görülür, bu yaşayış məntəqəsinə gedən yol yenidən qurulur.

Şahbuzlular göstərilən qayğıya münasibətlərini xoş sözlərlə bildirdilər. Ömrünün bir əsrini arxada qoymuş Kükü kənd sakini Bəyim Əliyeva dedi:

– Ömür vəfa etsə, belə əyyamda hələ bir əsr də yaşayaram. Görülən bu işlərə görə dövlətimiz sağ olsun. 20-30 il bundan əvvəl kim idi, bu dağların ətəyində yaşayanları yada salan?

Sələsüz kənd tam orta məktəbinin müəllimi Zəringül Novruzova:

– Ölkəmizin iqtisadi qüdrəti artdıqca, insanların da həyat səviyyəsi yüksəlir, yaşayış məntəqələrimizin siması dəyişir. Bunu dağlıq bölgəmiz olan Şahbuz rayonunun timsalında da görmək olar. Bu kiçik rayonda son illərdə reallaşdırılan layihələr hamımızı ürəkdən sevindirir. Deyim ki, şahbuzlular həmişə dövlətçiliyimizi, müstəqilliyimizi müdafiə edən insanlar olublar. Bu gün də belədir, sabah da belə olacağına inanın. Qarşıdan gələn prezident seçkilərinə yüksək əhval-ruhiyyə ilə hazırlaşan rayon sakinləri belə yaşayışımızın təməlini qoymuş ulu öndər Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevə səs verməklə qarşıdakı beş ildə daha böyük uğurların iştirakçısı və şahidi olacaqlar.

**Muxtar MƏMMƏDOV**
**Əli XUDİYEV**

## 18 min 423 hektar sahənin taxılı biçilib

Ötən ilin payızında və cari ilin yazında muxtar respublikamızda 35 min 324 hektar sahədə taxıl əkini keçirilib. Zəmilərə aqrotexniki qaydada vaxtlı-vaxtında qulluq göstərilib. Bunun üçün taxılçılar dövlətin müəyyən etdiyi bütün yardımlardan təyinatı üzrə istifadə ediblər. Çəkilən zəhmət hədər getməyib. Sahələrdə bol məhsul yetişib. İyun ayının 10-dan taxıl tədarükünə başlanılıb. Məlumat üçün bildirək ki, taxıl biçini kampaniyası başlananadək bütün hazırlıq tədbirləri həyata keçirilib. Bu isə torpaq mülkiyyətçilərinin minbir zəhmətlə hasilə gətirdikləri məhsulun itkisiz tədarükünə və daşınmasına imkan verib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, iyul ayının 8-dək 18 min 423 hektar sahədən 53 min 470 ton məhsul tədarük edilib. Bu da orta hesabla hər hektardan 29 sentner məhsul deməkdir.

Taxıl tədarükündə Şərur rayonu irəlidə gedir. Belə ki, bu bölgədə 5105 hektar sahədən 15 min 340 ton məhsul tədarük olunub. Babək rayonunda da taxıl biçini sürətlə davam etdirilir. Bölgədə 5100 hektar sahənin məhsulu yığılıb. Taxılçılar 15 min 110 ton məhsula sahib olublar. Culfa rayonunda da taxıl biçini mütəşəkkil qaydada təşkil edilib. Rayonda 3550 hektar sahədə taxıl biçini yekunlaşdırılıb. Zəmilərdən 9970 ton məhsul götürülüb. Ordubadlıların da sevinci hədsizdir. Qeyd edək ki, muxtar respublikada taxıl biçininə ilk onlar başlayıblar. Bu günədək rayonda 1770 hektar sahədən 4870 ton məhsul tədarük edilib. Kəngərli rayonunun taxılçıları 1485 hektar sahədən 4140 ton məhsul götürüblər. Sərhəd bölgəmiz olan Sədərək rayonunun taxılçıları 920 hektar sahədə taxıl biçinini başa çatdıraraq 2726 ton məhsula sahib olublar. Naxçıvan şəhərinin torpaq mülkiyyətçiləri 460 hektar sahədən 1225, şahbuzlular 33 hektar sahədən 89 ton məhsul yığıblar.

Taxıl biçini davam edir.

## Culfada internet istifadəçilərinin sayı artıb

Muxtar respublikada əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə həyata keçirilən tədbirlər bu sahədə yüksək nəticələrə nail olunmasına imkan vermişdir. Həmin tədbirlərdən Culfa rayonuna da xeyli pay düşmüşdür. Rayon Rabitə İdarəsindən aldığımız məlumata görə, bu gün bölgə sakinləri ikisi Culfa şəhərində, 12-si kənd yaşayış məntəqələrində olmaqla, 14 avtomat telefon stansiyasının xidmətindən istifadə edir. Müntəzəm olaraq rabitəçilər ATS-lərdə reydlər aparır, texniki göstəricilərin normativlərə uyğun olub-olmadığı yoxlanılır, sıradan çıxmış akkumulyatorlar yeniləri ilə əvəz olunur. Rayonda son 6 ayda 61 yeni telefon xətti çəkilərək, ümumilikdə, abonentlərin sayı 5491-ə çatdırılmışdır. Xətt təsərrüfatında müntəzəm olaraq təmir işləri aparılır, əhalinin keyfiyyətli rabitə xidmətindən istifadəsi yaxşılaşdırılır.

Qeyd olunmalıdır ki, muxtar respublikanın digər bölgələrində olduğu kimi, bu rayonda da genişzolaqlı internet istifadəçilərinin sayı artıb. Rayonda internet istifadəçilərinin sayı 800-ə çatıb. Göydərə, Saltaq, Xanəgah və başqa kəndlərdə əhalinin bu rabitə növündən istifadəsinin reallaşdırılması sakinlər tərəfindən razılıqla qarşılanır.

**Xəbərlər şöbəsi**

*Son illərin sosial-iqtisadi inkişafını, tikinti-quruculuq işlərini, insanların rifah halının daha da yaxşılaşdırılmasını qələmə almaq mənim üçün həmişə xoş olub. Ancaq nədənsə yeni tikilmiş və ya əsaslı təmir edilmiş səhiyyə müəssisəsi barədə yazı hazırlamaq istəyəndə qələm daha "ürəkdən işləyir". Desəm ki, bunun səbəbini özüm də bilmirəm, səmimiyyətimə inanın. Hansı rayonda, şəhərdə və ya hansı yaşayış məntəqəsində olursa-olsun, müasir səhiyyə ocağının tikilməsi və ya mövcud binaların yenidən qurulması ölkə vətəndaşına, daha dəqiq desək, ən qiymətli kapital olan insanın sağlamlığına xidmət edir.*

# Yüksək xidmət varsa, inam da var

## *Söhbət son illər sürətlə inkişaf edən Sədərək səhiyyəsindən gedir*



Bu gün mənim yeni səhiyyə ocağı görəndə sevinməyimin təməlində, bəlkə də, SSRİ dövründən yadda qalan müəyyən psixoloji məqamlar dayanır. Çünki o dövrdə istənilən rayonda hansısa xəstənin vəziyyəti bir az ağırlaşırdısa, dərhal deyirdilər ki, Bakıya aparın. Bakıdan isə xəstələrin Moskvaya və ya başqa şəhərlərə göndərilməsi tendensiyası hökm sürürdü. İndi isə...

Elə götürək sərhəd bölgəsi Sədərəyi. Son illər burada həyata keçirilən irimiqyaslı işlər qədim oğuz yurdunun simasını xeyli dəyişdirmişdir. İstər rayon sakinləri, istərsə də buraya digər yerlərdən üz tutanlar Sədərəyin 10-15 il bundan qabaqkı Sədərək olmadığını açıq-aydın görür və hiss edirlər. Dövlətin sosial siyasətinin uğurları ölkəmizin, muxtar respublikamızın bütün regionlarında olduğu kimi, bu rayonda da diqqət çəkir. Burda elə sahə yoxdur ki, inkişaf etməsin, tərəqqidən geri qalsın. Belə sahələrdən biri də məhz səhiyyədir.

Düşmənlə təmas xəttinin bir addımlığında yaşayan əhaliyə nümunəvi səhiyyə xidməti göstərilməsinin təmin olunması sərhəd bölgəsinə dövlət qayğısının əyani ifadəsidir. Rayonun Sədərək kəndində 2010-cu il oktyabrın 5-də zirzəmi ilə birlikdə üçmərtəbəli xəstəxana binası istifadəyə verilmiş, səhiyyə ocağı lazımi avadanlıqlarla təchiz edilmişdir. Xəstəxananın açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev burada görülmüş işlərdən, əhalinin sağlamlığı üçün yaradılan nümunəvi şəraitdən razı qalmış, eyni zamanda dəyərli tövsiyələrini vermişdir.

...Budur, yenidən rayon mərkəzi xəstəxanasındayam. Onların əksəriyyətini tanıyıram; həmin həkimlər, feldşerlər, tibb bacılarıdır. Sadəcə, daha inamlı, cəsarətli olublar. Bilirsiniz niyə? Çünki işlədikləri tibb müəssisəsi başdan-ayağa dəyişib. Hara baxırsan, təmizliklə, gül-çiçəklə, yaşıllıqla qarşılaşırsan. Həkimin əlinin altında tibbin son nailiyyətləri hesab olunan müasir avadanlıqlar var.

Rayon Mərkəzi Xəstəxanasının əvvəlki görkəmi hələ də gözlərim qarşısındadır, vəziyyət tamam başqa cür idi. Çürümüş taxta döşəmələr, nimdaş görkəmdə palatalar, sovet dönəmində buraxılmış avadanlıqlar, üfunətli sanitariya qovşaqları... bax, bu idi Sədərək xəstəxanasının ümumi mənzərəsi.

1991-ci ildən rayon Mərkəzi Xəstəxanasına Nəriman Seyidov rəhbərlik edir. O, Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə həmişə könüllülərin yanında olmuş, yaralılara, ehtiyacı olanlara tibbi yardım göstərmişdir. Əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, "Tərəqqi" medalına layiq görülmüşdür. Sədərəklilər Nəriman Seyidovu yaxşı həkim, səhiyyə təşkilatçısı kimi dəyərləndirirlər. Mənim isə Nəriman həkimə həm də yaxşı həmsöhbət kimi xüsusi rəğbətim var. Elə bu yazıda qələmə aldığım fikirləri də o, baş həkim kimi deyil, bir ziyalı kimi söylədi:

– Bu gün ölkəmiz öz tarixi ərzində ən yüksək inkişaf mərhələsini yaşayır. Bu sözləri deyəndə təkcə dövlətin büdcəsinin artmasını, ordunun heç zaman olmayan bir səviyyədə qüdrətlənməsini, böyük tikinti-quruculuq işlərini nəzərdə tutmuram. Əlbəttə, onlar da cəmiyyət həyatında xüsusi önəm kəsb edən məsələlərdəndir. Mən "ölkənin ən yüksək inkişaf mərhələsi" deyəndə, insana göstərilən qayğını və diqqəti nəzərdə tuturam. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. İndi hər şey hamının gözü qabağındadır. Bəlkə də, mən ixtisasca həkim olduğuma görə belə düşünürəm. Mənim fikrimcə, insana göstərilən qayğı və diqqətin önündə əvvəlcə onun lazımi səhiyyə xidməti ala bilməsi, sonra isə təhsillə əhatələndirilməsi getməlidir. Uşaq 6-7 yaşına kimi sağlam böyüyə bilməsə, onun normal təhsil ala bilməsi də problemə çevriləcək. Dövlət öz vətəndaşına bu iki xidməti yüksək səviyyədə göstərirsə, deməli, milli tariximiz qarşısında böyük xidmətlər göstərmiş olur.

Səhiyyə ocağında 65 nəfərlik tibb personalı çalışır. Xəstəxanada Stasionar, Profilaktika və Təcili yardım şöbələri fəaliyyət göstərir. Burada həmçinin yoluxucu xəstəliklər, pediatriya, doğuş və ginekologiya, cərrahiyyə, terapiya bölmələri, laboratoriya, əczaxana, burun-qulaq-boğaz kabineti, fizioterapiya, manipulyasiya, elektrokardioqrafiya, ultrasəslə müayinə, stomatologiya, oftalmologiya, rentgen otaqları vardır. Xəstəxanada cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait yaradılmışdır.

Tapşırılan işə məsuliyyətlə, qarşıya qoyulan vəzifəyə işgüzarlıq və həssaslıqla yanaşmaq ümumi müvəffəqiyyəti təmin edən əsas amildir. Bu da fakt: 2012-ci ildə 26 çarpayılıq şəfa ocağında ambulator xəstə qəbulu 27 min 30, stasionar xəstə qəbulu isə 251 nəfər olmuşdur. Bu ilin beş ayında isə 4752 ambulator, 89 stasionar xəstəyə tibbi xidmət göstərilmiş, 25 xəstə cərrahi müdaxilə sayəsində şəfa tapmışdır.

Sədərəkdə imtiyazlı xəstələrə xüsusi qayğı ilə yanaşılır. Təkcə 2012-ci ildə bu məqsədlə 14 min 500 manat dərman pulu xərclənmişdir ki, bu vəsaitin də 11 min 200 manatı şəkərli diabet xəstələrinin payına düşmüşdür.

Vərəm xəstəliyinin erkən aşkar edilməsi üçün cari ilin aprel ayında rayonda 1221 uşaqda mantu sınağı aparılmışdır. Bundan sonra əsas diqqət sınağa reaksiyası şübhəli olan şagirdlərin rentgen-flüoroqrafik müayinəsinə yönəldilmişdir. Bu məqsədlə may ayında Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim və tibb bacılarından ibarət briqadası Sədərək Rayon Mərkəzi Xəstəxanasında olmuş, səyyar flüoroqrafik maşınla 16 şagirdi müayinədən keçirmişdir. Müayinələr zamanı aktiv vərəm xəstəliyi aşkar olunmamışdır. 5 şagirdə profilaktik müalicə təyin edilmiş, tibbi məsləhətlər verilmişdir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin xətti ilə həkim briqadaları tez-tez Sədərəyə gəlib burada səyyar qəbullar təşkil edir, yerli həkimlərlə bərabər müayinə və müalicələr aparır, cərrahi əməliyyatlar həyata keçirirlər. Səhiyyə Nazirliyinin həkim briqadası növbəti dəfə keçən ay xəstəxanada olmuşdur. Kütləvi profilaktik tibbi müayinələrdə sədərəkli həkim və tibb işçiləri yaxından iştirak etmişlər. Bütün bunların nəticəsidir ki, Sədərəkdə hamı səhiyyə işçilərinə inanır və öz sağlamlığını onlara etibar edir. Həkimlər və tibb işçiləri də onlara olan inamı görürlər. Baş həkim söhbətinin sonunda bunu xüsusi vurğuladı:

– Dövlətimiz bizə yüksək şərait yaratmışdır. Gərək elə çalışaq ki, etimadı doğruldaq. Sərhəd bölgəsində yaşamaq və işləmək həm çətin, həm də şərəflidir. Burada adamların bir xoş sözə, isti baxışa ehtiyacı var. Rayonumuzun səhiyyə işçiləri əhalidən öz şəfqətlərini əsirgəmir, bir xəstənin dərdinə dərman, bir yaralının yarasına məlhəm olmaqdan ötrü əllərindən gələni edirlər. Mən inanıram ki, elə bir gün gələcək, Sədərəkdən bir nəfər də olsun, xəstə müalicə və müayinə üçün başqa yerə getməyəcək. Bizim ən başlıca məqsədimiz xəstələrin inamını itirməməkdir. Qaldı ki, yüksək xidmət varsa, inam da mütləq yaranacaq.

*Baş həkimin dediyi bu sözlərdə çox böyük qətiyyət, inam və nikbinlik var idi. Sədərəyin tibb işçilərinin bugünkü fəaliyyəti belə deməyə, belə düşünməyə əsas verir. Uğurlar olsun!*

**Cəfər ƏLİYEV**

# Şimal-şərqi Anadolu ilə Naxçıvan arasındakı 7 bənzərlik

## *19-cu Beynəlxalq Dədə Qorqud Festivalı ilə bağlı düşüncələr*

***Döyüşən şanlı türk tarixinin müdriklik zirvəsi Dədə Qorqudla bağlı festivalda iştirak etmək üçün 8 nəfərlik heyətimizlə bir ulu türk yurdundan – Naxçıvandan, digər ulu türk yurdları – Ərzurum və Bayburta doğru yola düşürük. Azərbaycanın "ön sözü" olan Naxçıvandan, Türkiyənin "ön sözü" adlandırılan Ərzuruma gedən yolda elə zümzümə etdiyimiz mahnılardan biri də belədir: "O da ulu, bu da ulu Azərbaycan – Türkiyə".***

Yol boyu hərəkət etdikcə, əbədi türkün olan bu torpaqlarda Səlcuq, Atabəy, Elxani, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi və Osmanlı izlərini gördükcə tarixi əməlləri ilə yaradan əcdadlarımızla öyünməmək olmur. Gecə saatlarında Ərzuruma çatırıq. Növbəti gün isə ölkəmizin digər bölgələrindən gələn həmkarlarımızla birlikdə 19-cu Beynəlxalq Dədə Qorqud şənliklərində iştirak etmək üçün Bayburta yola düşməliyik. Yəqin ki, həmkarlarımın hər biri bu festival haqqında nəsə yazmaq düşüncəsindədir. Nə yazacağımı bilməsəm də, səfərin sonunda yazının, sadəcə, adını müəyyənləşdirə bilirəm. Deyəsən, tapmışam axı: Şimal-şərqi Anadolu ilə Naxçıvan arasında 7 sirli bənzərlik var.

### *Dədə Qorqudun iki heykəli*

Oğuzun şanlı dastanı məhz burda – bu torpaqlarda yazılıb. Daha doğrusu, yazılmayıb yaradılıb. Aruzun xəyanəti, Şöklü Məliyin Qazan xanın ocağını yağmalamağa çalışmasına da məhz bu torpaqlar şahid olub. Dədə Qorqud bu torpaqlarda gəzib, qopuzunu kökləyib, yol düzləyib, söz söyləyib. Nəhayətində isə "gəlimli-gedimli dünya, son ucu ölümlü dünya"dan Bayburtun Masatköyündə köçüb. Amma onun ulu türk ruhu bu torpaqlar üzərində olub, neçə-neçə oğuz igidinə ad, döyüşə gedən qazilərə xeyir-dua verib. Nədənsə mənə elə gəldi ki, Dədəm Qorqudun Bayburtdakı və Naxçıvandakı heykəllərinin hər ikisi üzü əski türk torpaqlarına doğru baxır. Bizi Bayburtda Dədə Qorqudun məzarı və abidəsi ilə tanış edən Şimal-Şərqi Anadolu İnkişaf Agentliyinin (KUDAKA) əməkdaşları bu Türk Atasının heykəli haqqında danışarkən Naxçıvan şəhərinin mərkəzi meydanlarından birində ucalan heykəli xatırlayıram və birinci sirli bənzərliyi özüm üçün kəşf etmiş oluram.

Masatköydə isə dastanlardakı kimi çadırlar qurulub, dünyanın müxtəlif ölkələrindən gələn insanlar Dədə Qorqudun məzarını ziyarət edir, onun haqqında danışır, oğuz igidləri halay çəkirlər. Qürurla daşıdığımız üçrəngli şanlı Azərbaycan bayrağının bir az aralıda durmuş rəqqasların əynindəki milli geyimlərimizdə və başları üstündə əks olunduğunu görməkdən qürurlu mənzərə ola bilməz, məncə. Hələ düz Dədə Qorqudun məqbərəsinin yanında İtaliyanın Milan şəhərindən olan bir professor sinyor Serjio sənə "mən də azərbaycanlıyam" deyirsə, bu qürur ikiqat artır. Elə Dədə Qorqudun abidəsi önündə Oğuz oğullarının bir-biri ilə yardımlaşma dastanının növbəti boyu hesab edilə biləcək bir əhvalat danışılır bizə. Bayburt valisi, XX əsrin 90-cı illərində isə İğdırın Aralıq ilçəsinin rəhbəri olmuş Hasan İpək Naxçıvandan gəldiyimizi bildikdə bizə bunu danışır. XX əsrin 90-cı illərində Naxçıvanın blokada şəraitində olduğu vaxt bütün türk dünyasının lideri, böyük şəxsiyyət Heydər Əliyevin Naxçıvanın qorunması, insanların ehtiyaclarının ödənilməsi üçün misilsiz xidmətlərindən və o zamankı xatirələrdən danışır. Deyir ki, Naxçıvanın bugünkü inkişafını görmək, bu qədər güclü olduğunu görmək hər bir türk insanı üçün qürur olmalıdır. Naxçıvan o ağır illərdən fərqli olaraq, anbaan, saatbasaat inkişaf edir.

### *Zülmdən qaçanların sığındığı müqəddəs məkanlar*

Yəqin ki, çoxlarımız Allahdan üz çevirib bütlərə tapınan Dağ Yunus adlı hökmdarın zülmündən qaçıb Naxçıvandakı Əshabi-Kəhf mağarasına sığınan 7 kimsənəni xatırladıq. Tək Tanrıya inanan insanların ərşə çıxmış zülmə qarşı dirənişinin bir simvolu da məhz şimal-şərqi Anadoluda – Bayburt yaxınlığındakı Aydıntəpə yeraltı şəhəridir. Başdan-başa tarixi bir mədəniyyət xəzinəsi olan Bayburtun mərkəzindən 25 kilometr şimal-qərbdə yerləşən Aydıntəpədəki bu yeraltı şəhər haqqında tədqiqatçıların maraqlı bir fikri var. Onlar hesab edirlər ki, hələ xristianlığın Roma imperiyasında rəsmən qəbul edilmədiyi vaxtlarda romalılar tərəfindən qovulan ilk xristianlar bu bölgəyə gəlmiş və məhz bu yeraltı şəhərə sığınmışlar. Uzunluğu təqribən 1000 metr olan yeraltı yollarla hərəkət etdikcə həqiqətə inanan insanların zülmə qarşı dirənmək üçün nələrə qadir olduqlarının fərqinə varırsan. Yerin dərinliyindəki dumduru su mənbələri, sütunlar isə insanı valeh edir.

### *Günbəzli türbələr diyarı*

Naxçıvanla şimal-şərqi Anadolu arasındakı üçüncü bənzərlik budur. Hər iki diyar türk-səlcuq mədəniyyətinin günbəzli türbələrini yaşatmaqdadır. Naxçıvanda memar Əcəmi Əbubəkr oğlu tərəfindən 1162-ci ildə tikilən Yusif Küseyiroğlu türbəsinə bir çox cəhətlərinə görə bənzəyən Ərzurum günbəzli türbələrinin üzərində Naxçıvan memarlıq məktəbinin ənənələrinin təsiri açıq-aşkar görünməkdədir. Ərzurumdakı Qoşaminarəli mədrəsənin cənubunda yerləşən ərazidə bu günə qədər olan üç türbədən biri və ən böyüyünün XIII əsrin sonu XIV əsrin əvvəllərinə aid olduğu ehtimal edilir. Tarixçilər hesab edirlər ki, bu, uzun zaman bölgədə hakimlik etmiş Əmir Saltukun türbəsidir. Kimə aid olduğu bilinməyən digər iki türbəylə Yusif Küseyiroğlu türbəsi arasındakı bənzərlik açıq-aşkar sezilməkdədir.

### *Müalicəvi əhəmiyyətli termal və mineral sular*

Son illərdə Türkiyənin əsas səhiyyə mərkəzlərindən birinə çevrilməkdə olan Ərzurum termal sularla zəngindir və bölgənin inkişaf layihələrində kurort-sanatoriya turizminin inkişafı əsas yer tutur. Eyni ifadəni "Mineral suların təbii muzeyi" adlandırılan Naxçıvana da aid etmək olar. Ərzurumda Ekşisu ərazisində olan termal sular kimi Culfa ərazisindəki Darıdağ mərgümüşlü suları da müalicəvi əhəmiyyətə malikdir.

### *Tarixi qalalar və müdafiə tikililəri – tabiyalar*

Şimal-şərqi Anadolunun turizm potensialının inkişaf etdirilməsi üçün bu gün təbliği aparılan əsas abidələr Bizans hakimiyyəti dövründən bu günümüzə qədər qalmış tarixi qalalardır. Ərzurum qalası, Bayburt qalası, Həsənqala, Oltu qalası, İspir qalası və başqaları ilə Naxçıvanqala, Əlincə qalası arasındakı bir çox cəhətlər bənzərdir. Ərzurum tabiyaları deyilən XIX əsrə aid tikililər isə özünəməxsusdur. Ən məşhurları Əziziyyə və Məcidiyyə olan 19 Ərzurum tabiyası Osmanlılar tərəfindən rus hücumlarından müdafiə məqsədi ilə tikdirilmişdir.

### *İpək Yolu üzərində yerləşən tağlı körpülər*

Xudafərin, Ziyaülmülük, Aza, Əlincəçay, Qazançı, Ləkətağ körpüləri. Bunlar Böyük İpək Yolunun ən mühüm qollarından birinin keçdiyi Naxçıvan tarixinin ən möhtəşəm yadigarlarıdır. Əsrlər boyunca Naxçıvan kimi Ərzurum və ətrafındakı ərazilər də ticarətin ən mühüm mərkəzlərindən olmuş, mədəniyyətlərin qovşağına çevrilmişdir. Çobandədə, Dərvişağa, Karaz, Nəbi xanları tağlı körpüləri də məhz bu tarixin xəbərçiləridir.

### *Milli azadlıq hərəkatının yol xəritəsinin müəyyənləşdirildiyi iki şəhər*

Bu, bəlkə də, Naxçıvanla Ərzurum arasında ən maraqlı bənzərlikdir. Osmanlı dövlətinin faktiki olaraq dağıldığı bir vaxtda – 3 iyul 1919-cu ildə gələcək qurtuluş savaşının rəhbəri Mustafa Kamal paşa məhz Ərzuruma gəlmiş, 52 gün burada qalmış və türk milli azadlıq hərəkatının, yeni dövlət quruculuğunun yol xəritəsi burda çəkilmişdir. Eyni ilə XX əsrin sonunda ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi və müstəqil Azərbaycan dövlətinin inkişaf istiqamətlərinin məhz Naxçıvanda müəyyənləşdirilməsi kimi. Əgər bir-birinə çox bənzəyən bu iki hadisə baş verməsəydi, bizim Ərzurumda milli kimliyimizlə qürur duya-duya Azərbaycan bayrağını dalğalandırmağımız, Dədə Qorqud şənliklərində halay çəkməyimiz, Bayburt Qalasında Koroğlunun qəhrəmanlıqları haqqında qürurla danışmağımız, Ərzurum tarixinin yadigarları ilə tanış olmağımız mümkün olacaqdımı? Bu sualın cavabını kimsəyə verməyə məcbur deyilik, artıq. Biz müstəqilik, birik və bərabərik. Tanrı azadlığımızın qədrini bilənləri qorusun!

**Elnur KƏLBİZADƏ**

***Naxçıvan-Ərzurum-Bayburt-Naxçıvan***




# Dörd naxçıvanlı karateçinin hamısı dünya kubokundan uğurlu nəticə ilə qayıdıb

***Bu dəfə üz-üzə durub söhbət etdiyim dörd qəhrəmanımla, sadəcə, qələbədən danışırıq: bayrağımızın dalğalanmasından, himnimizi tarixi düşmənlərimizin belə, ayaq üstündə dinləməsindən, bir də işğalçılar üstündə çalınan qələbədən.***

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini, IV dan qara kəmər sahibi, dünya kubokunun qalibi Nəriman Quliyev, dünya çempionu Mirpaşa Kərimov, II dan qara kəmər sahibi, dünya kubokunun ikincisi İlkin Şirinov, dünya kubokunun üçüncüsü Xəzər Əliyev Ukraynanın Odessa şəhərində 18 ölkənin yığma komandalarının iştirakı ilə keçirilən karate idman növü üzrə VI dünya kuboku yarışlarında Azərbaycan milli yığma komandasının tərkibində çıxış ediblər. Təqdirəlayiq haldır ki, 40 nəfərlik milli yığma komandamızın tərkibinə qatılan 4 naxçıvanlı idmançının hamısı Vətənə medallarla qayıdıb.

***40 saniyədə qələbə***



Yarışlara Naxçıvanı təmsil edən idmançıların həm də məşqçisi kimi qatılan Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev deyir ki, ABŞ, Ukrayna, Rusiya təmsilçilərinə qarşı döyüş keçirməkdən daha məsuliyyətlisi göstərilən diqqəti və qayğını doğrultmaq, birinci tatami üzərinə çıxmaq idi. Kontakt karate yarışlarında 35 yaşdan yuxarı idmançıların mübarizəsində dünya kubokunun birincisi olan idmançımız ilk görüşün elə bu səbəbdən daha gərgin olduğunu deyir. Finalda isə ABŞ təmsilçisini 3 dəqiqəlik görüşdə 40 saniyə ərzində məğlub etmək nəinki idmançımız, bütün milli komanda üçün gözlənilməz olub. İdmançımız Odessada digər bir nəticə də əldə edib. Belə ki, o, kata görüşlərində üçüncü yerə sahiblənə bilib.

***Naxçıvandan Odessaya gedib erməniyə məğlub ola bilməzdim...***



I dərəcəli qəhvəyi kəmər sahibi və artıq qara kəmərə namizəd olan Mirpaşa Kərimov 14-15 yaşlı idmançılar sırasında mübarizə aparıb. İlk oyunda iki rusiyalı və bir ukraynalı idmançını 4:0 hesablı təmiz qələbələrlə məğlub edən Mirpaşa finalda, sözün əsl mənasında, tarix yazıb. Belə ki, millimizin iki idmançısını məğlub edərək finala yüksələn Ermənistan təmsilçisini çempionluğa həsrət qoyub. “Tatami üzərinə çıxanda nə düşünürdün?” – deyə soruşuram. Qürurla üzümə baxan bu balaca dostumun cavabı kifayət qədər qürurvericidir. “Düşündüyüm bircə şey vardı: Naxçıvandan Odessaya gəlib erməniyə məğlub ola bilmərəm. Həm də axı bütün komandanı, bizi dəstəkləyən azarkeşləri məyusluqdan qurtarmaq lazım idi. Sübut etməliydim ki, qələbə sonda mütləq bizim olur”.

Federasiyanın sədr müavini Nəriman müəllim də Mirpaşanın keçirdiyi görüşün gərginliyindən danışır: “Milli komandanın bütün heyətinə, azarkeşlərə bu qələbə hava-su kimi lazım idi. O, tatami üzərinə çıxdı, döyüşdü və 4:0 hesablı təmiz qələbə ilə təkcə bu oyunda yox, Qarabağda da son qələbənin kimin olacağını dünyaya nümayiş etdirdi”.

***Gələcək yarışlardan mütləq çempion kimi qayıdacağam***



VI dünya kuboku yarışlarına qatılan digər bir təmsilçimiz Xəzər Əliyev isə üçüncü yerlə kifayətlənib. 16-17 yaşlı idmançıların yarışında Ukrayna təmsilçisini 4:1, Rusiya təmsilçisini 4:0 hesabı ilə məğlub edən idmançımız dörddəbir final mərhələsində daha təcrübəli İtaliya təmsilçisi ilə qarşılaşıb. Dəmək olar ki, rəqibi ilə başabaş mübarizə aparan idmançımız 1:2 hesablı məğlubiyyətlə barışmalı olub. “Bu, mənim qatıldığım ilk dünya kuboku yarışları idi. İlk dəfə belə dünya kuboku kimi mötəbər yarışda iştirak həyəcansız ola bilməzdi. Deyirlər ki, güclü rəqiblərlə mübarizədə əldə etdiyim nəticə pis deyil. Amma mən daha böyük qələbələrə iddialıyam. Gələcək yarışlardan mütləq çempion kimi qayıdacağam”.

***Öz qələbələrimdən daha qürurverici olanı erməni idmançının məğlubiyyətdən sonra məşqçilərimizin qarşısında baş əyməsi idi***



Finala gedən yolda Qazaxıstan, Rusiya, İtaliya təmsilçilərini təmiz qələbələrlə məğlub edən ikinci dan qara kəmər sahibi İlkin Şirinov yalnız finalda əvvəllər Ukrayna və Avropa çempionu olmuş idmançı ilə mübarizədə tatamini məğlub tərk edib. “Daha titullu və beynəlxalq yarışlarda daha təcrübəli rəqiblə qarşılaşmaq, düşünürəm ki, finaldakı məğlubiyyətimin əsas səbəbi idi. Beləliklə, mən dünya çempionatının ikincisi oldum”, – deyir İlkin Şirinov. Finalda yalnız xal hesabı ilə məğlubiyyətə uğrayan İlkin gələcək yarışlara hazırlaşmaq üçün yaradılan şəraitdən maksimum bəhrələnəcəyini bildirir. “Sənin üçün ən gərgin və maraqlı görüş hansı idi?” sualına isə İlkinin cavabı maraqlı olur. Deyir ki, ən çox erməni idmançı ilə qarşılaşanda komanda yoldaşının final görüşündə gərginliyini hiss edib. “Öz qələbələrimdən daha qürurverici olanı erməni idmançının məğlubiyyətdən sonra məşqçilərimizin qarşısında baş əyməsi idi”, – deyən idmançımız qazanılan qələbələrin muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğının bəhrəsi olduğunu vurğuladı.

İdmançılarımızın oktyabr ayında Ukraynanın Odessa şəhərində keçiriləcək dünya çempionatı yarışlarında da iştirak edəcəyini deyən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev federasiya rəhbərliyinin idmançılarımızın beynəlxalq yarışlarda qələbə qazanmasını qarşıya əsas vəzifə kimi qoyduğunu deyir. “Göstərilən bu qədər dövlət qayğısı, muxtar respublika rəhbərliyi tərəfindən Naxçıvanda beynəlxalq səviyyəli yarışların təşkil edilməsinə dəstək verilməsi idmançılarımızın qələbə qazanmasını müqəddəs vəzifəyə çevirir. Federasiya rəhbərliyinin əsas tələbi də beynəlxalq səviyyəli yarışlarda ölkəmizin bayrağını həmişə yüksəklərdə dalğalandırmaq, yeni-yeni qələbələr qazanmaqdır” – Sitatın sonu.

**E.KƏLBİZADƏ**

Bu il mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrə bağlı müşavirədə Ali Məclisin Sədri “Araz” klubunun yaradılması haqqında tapşırıq verib. Beləliklə də, Naxçıvana peşəkar futbolun qayıtmasının təməli qoyulub. futbol idman növü Azərbaycanda, eləcə də muxtar respublikamızda böyük dövlət dəstəyi göstərilən və ilbəil öz uğurlarını artıran kütləvi idman növüdür. Yüzlərlə yeniyetmə və gənc futbolla məşğul olur, bu idman növünün inkişafı istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. “Araz” komandasının yenidən təşkil edilməsi də

# Peşəkar futbolçularla əmək müqaviləsi bağlanmışdır

Bu iş Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinə və Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasına həvalə edilib. Ötən müddət ərzində adıçəkilən qurumlar tərəfindən yeni komandanın formalaşdırılması istiqamətində konkret addımlar atılıb, komandaya yeni baş məşqçi cəlb olunub. Baş məşqçi SSRİ idman ustası, Azərbaycan milli futbol komandasının, sonra “Turan” komandasının sabiq məşqçisi olmuş veteran futbolçu Əsgər Abdullayevdir. İyun ayının 3-dən Əsgər Abdullayev və fiziki hazırlıq üzrə məşqçi, milliyyətcə gürcü olan Yevgeni Qurqadze Şərur Olimpiya İdman Kompleksində təlim-məşq toplanışı aparmış, “Araz” komandasına oyunçu seçimi ilə məşğul olmuşlar.

İyulun 9-da Şərur Olimpiya İdman Kompleksində “Araz” futbol klubuna seçilmiş peşəkar futbolçularla əmək müqaviləsi bağlanmasına həsr edilmiş mərasim keçirilmişdir. Tədbiri giriş sözü ilə açan “Araz” futbol klubunun icraçı direktoru Orxan Cabbarov bildirmişdir ki, bu gün muxtar respublikamızda idmana göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Tədbirdə komandanın baş məşqçisi Əsgər Abdullayev çıxış edərək demişdir ki, Naxçıvanda müasir idman bazaları, stadionlar, komplekslər mövcuddur. Odur ki, burada yaxşı komanda formalaşdırmaq mümkündür. İyunun əvvəllərindən komandanın oyunçularının seçiminə başlamışıq və artıq bu işi başa çatdırmışıq. Komandanı formalaşdırdıqdan sonra məşqləri Bakı şəhərində davam etdirəcək, bir sıra yoldaşlıq görüşləri keçirəcək, komandamızın oyun səviyyəsini müəyyənləşdirəcəyik. Növbəti mövsümdən birinci divizionda mübarizə aparmağı qarşımıza məqsəd qoymuşuq. “Araz” ev oyunlarını Naxçıvan şəhərindəki muxtar respublika stadionunda keçirəcək. Biz birinci divizionda yaxşı nəticə göstərməyə və azarkeşləri sevindirməyə çalışacağıq.

Sonda “Araz” komandasına qəbul olunmuş peşəkar futbolçularla əmək müqaviləsi bağlanmışdır.

**Xəbərlər şöbəsi**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Naxçıvan Dövlət Universiteti

*2013-2014-cü tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

- *-Tarix müəllimliyi*
- *-Azərbaycan dili və ədəbiyyat müəllimliyi*
- *-Riyaziyyat və informatika müəllimliyi*
- *-Biologiya müəllimliyi*
- *-Kitabxanaçılıq və informasiya*
- *-Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi*
- *-Beynəlxalq münasibətlər*
- *-Xarici dil müəllimliyi (ingilis dili)*
- *-Hüquqşünaslıq*
- *-Dövlət və bələdiyyə idarəetməsi*
- *-Turizm və otelçilik*
- *-İqtisadiyyat*
- *-Mühasibat uçotu və audit*
- *-Musiqişünaslıq*
- *-İbtidai sinif müəllimliyi*

Əvvəlki ali təhsili və ya hazırda (1 ildən az olmayaraq) işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər müvafiq qaydaya əsasən, uyğun ixtisaslar üzrə müsabiqədə iştirak edə bilərlər. Əlavə ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-rektorun adına ərizə;*

*-ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*

*-3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*

*-əmək kitabçasının surəti;*

*-sağlamlıq haqqında arayış;*

*-şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Sənədlər 2013-cü il avqust ayının 31-dək hər gün (istirahət günlərindən başqa) saat 10[00]-dan 16[00]-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir (əsas bina, 2-ci mərtəbə, 211-ci otaq).

Universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müsabiqə yolu ilə əlavə ali təhsil üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***
***telefon: 545-31-70***
**REKTORLUQ**

### Allah rəhmət eləsin

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanasının Pediatriya şöbəsinin kollektivi sabiq iş yoldaşları **XUBLAR XANIMIN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İmran Qasımov adına Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivi kitabxananın direktoru Sədaqət Əsgərovaya, anası **ƏMMƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 647